

# AKADEMİK ABEL MƏHƏRRƏMOV – 60

Bu gün fəxrlə deyə bilərik ki, son zamanlar Bakı Dövlət Universitetində böyük quruculuq işlərinin aparılması ali məktəb sistemini dərindən bilən Azərbaycan MEA-nın həqiqi üzvü, Əməkdar elm xadimi, millət vəkili, professor Abel Məmmədəli oğlu Məhərrəmovun adı ilə bağlıdır.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin sərəncamı ilə Bakı Dövlət Universitetinə rektor təyin edilmiş Abel Məhərrəmov ilk gündən bütün bilik və bacarığını, potensial imkanlarını doğma universitetin tərəqqisinə, təhsil sisteminin yüksəldilməsinə və təkmilləşdirilməsinə istiqamətləndirmiş, bu ali təhsil ocağını beynəlxalq standartlara cavab verən dünya universitetləri sırasına çıxara bilmişdir.

Akademik Abel Məhərrəmovun düzgün və məqsədyönlü rəhbərliyi sayəsində qısa zaman ərzində BDU-nun maddi-texniki bazası xeyli möhkəmlənmiş, yaraşıqlı universitet şəhərciyi yaradılmış, yeni tədris korpusları və idman kompleksi tikilib istifadəyə verilmiş, güclü elmi-pedaqoji potensiala malik olan kollektiv formalaşmışdır. Universitetin tədris prosesinin daha da təkmilləşdirilməsi, tədrisin keyfiyyətini yaxşılaşdırmaq üçün əsaslı islahatların aparılması, tədris prosesinə müasir kompüter texnologiyasının tətbiq edilməsi, yeni fakültələrin, ixtisasların, kafedraların açılması, nizam-intizamın möhkəmləndirilməsi, dünyanın qabaqcıl ölkələrinin iş təcrübəsindən istifadə olunması, yeni dərsliklərin və dərs vəsaitlərinin yazılıb çap etdirilməsi bunun əyani sübutudur. Bununla da rektor qısa zaman ərzində müstəqilliyin qarşıya qoyduğu vəzifələrə, dövlətin ardıcıl həyata keçirdiyi təhsil islahatının tələblərinə

uyğun olaraq universitet təhsilinin və elminin inkişafında mühüm nailiyyətlər əldə etməyə nail olmuşdur.

Akademik A.Məhərrəmovun rektorluq fəaliyyəti nəticəsində Bakı Dövlət Universiteti son illərdə böyük inkişaf yolu keçmiş, respublikamızdan çox-çox uzaqlarda, o cümlədən dünyanın inkişaf etmiş ölkələrində geniş şöhrət qazanmış, məşhur ali təhsil müəssisələri arasında özünəməxsus yer tutmuşdur.

Hazırda Azərbaycanın ilk və öncül elm və təhsil müəssisəsi olan BDU-nun qarşısında duran ən başlıca məqsəd gələcəyin vətənpərvər, ziyalı vətəndaşını, yüksək səviyyəli mütəxəssisini hazırlamaqdan ibarətdir. Müasir dövrdə bu vəzifəni düzgün dəyərləndirən professor-müəllim heyəti bu ülvi məqsədlərə yetişmək üçün akademik Abel Məhərrəmovun rəhbərliyi ilə bütün imkanlarını səfərbər etmiş, eyni zamanda strateji istiqamətləri dəqiq müəyyənləşdirmişdir.

Elə bunların məntiqi nəticəsi kimi akademik Abel Məhərrəmov Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 30 oktyabr 2009-cu il tarixli sərəncamı ilə "Şöhrət" ordeni ilə təltif olunmuşdur.

Biz də Kitabxanaçılıq-informasiya fakültəsinin professor-müəllim heyəti və tələbə kollektivi adından möhtərəm rektorumuz, akademik Abel Məhərrəmovu həm bu yüksək dövlət mükafatına layiq görülməsi, həm də 60 illik yubileyi münasibəti ilə ürəkdən təbrik edir, ona uzun ömür, möhkəm cansağlığı və doğma Bakı Dövlət Universitetinin daha da çiçəklənməsi və inkişafı naminə yeni-yeni ugurlar arzulayırıq!

İnanırıq ki, 90 illik yubileyi dövlət səviyyəsində qeyd olunan Bakı Dövlət Universiteti ölkə rəhbərliyinin xüsusi diqqət və qayğısı, akademik Abel Məhərrəmovun səmərəli fəaliyyəti və işgüzarlığı sayəsində daha da inkişaf edəcək, ali məktəblər arasında özünün lider mövqeyini daim qoruyub saxlayacaqdır.

**Xəlil İSMAYILOV**
**Kitabxanaçılıq-informasiya fakültəsinin dekanı,**
**tarix elmləri doktoru, professor**